

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 79 (23.491)

*24 may 2020-ci il, bazar*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyası keçirilmişdir





Mayın 23-də altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyası keçirilmişdir.

Sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilmişdir.

1. Naxçıvan Muxtar Respublikasının Baş nazirinin təyin edilməsi

2. "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi

3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam Komissiyasının seçilməsi

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov gündəlikdə duran birinci məsələ ilə bağlı demişdir ki, Azərbaycan Respublikası Konstitusiyasının 140-cı maddəsinin II hissəsinə və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 37-ci maddəsinə əsasən Naxçıvan Muxtar Respublikasının Baş nazirini Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təyin edir. Buna müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə şəxsin namizədliyini Azərbaycan Respublikasının Prezidentinə təqdim etmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının Baş nazirinin təyin olunması barədə təqdimatı Ali Məclisə daxil olmuşdur.

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 32-ci maddəsinin I hissəsinin 3-cü bəndinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Baş nazirini vəzifəyə təyin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunmuş şəxsin – Səbuhi Hidayət oğlu Məmmədovun namizədliyini Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etmişdir.

Təklif səsə qoyulmuş və Səbuhi Hidayət oğlu Məmmədov Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov yüksək etimada görə Azərbaycan Respublikasının Prezidentinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq edərək demişdir: Ötən dövrdə muxtar respublika böyük inkişaf yolu keçmiş, blokada şəraitində olmasına baxmayaraq iqtisadiyyatın çoxşaxəli və davamlı inkişafına nail olunmuş, ərzaq və enerji təhlükəsizliyi təmin edilmişdir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, ötən il ümumi daxili məhsulun həcmi 2 milyard 839 milyon 650 min manata çatdırılmış, 1 milyard 14 milyon 971 min manat dəyərində sənaye, 507 milyon 641 min manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. Hazırda tikintisi davam etdirilən 2 yeni su elektrik stansiyası fəaliyyətə başladıqdan sonra muxtar respublika özünü 100 faizi alternativ və bərpaolunan enerji ilə təmin edəcəkdir. Ötən il muxtar respublikanın xarici ticarət dövriyyəsi 494 milyon 574 min Amerika Birləşmiş Ştatları dolları təşkil etmiş, ticarət əməliyyatlarının 86 faizi ixracın payına düşmüşdür. Səhiyyə, təhsil, turizm, rabitə, mədəniyyət, milli və mənəvi dəyərlərimizin qorunması, əhalinin məşğulluğunun təmin olunması sahəsində də ardıcıl tədbirlər görülür. İqtisadiyyatın çoxsahəli inkişafı muxtar respublikada büdcə gəlirlərinə öz müsbət təsirini göstərmiş, 2020-ci il dövlət büdcəsinin gəlirləri 2019-cu illə müqayisədə 37 faiz, 2018-ci illə müqayisədə isə 56,5 faiz artırılmışdır. Səbuhi Məmmədov durğunluq və ətalət vəziyyətində olan Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin muxtar respublikanın inkişaf dinamikasına uyğun olaraq çevik və effektiv idarə olunan yuxarı icra orqanı kimi fəaliyyətini gücləndirəcəyinə və verilən tapşırıqları uğurla yerinə yetirəcəyinə söz vermişdir.

Ali Məclisin Sədri yeni baş naziri təbrik etmiş, altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında qəbul olunmuş Fəaliyyət Proqramının icrasında uğurlar arzulamışdır.

Gündəlikdə duran ikinci məsələ ilə bağlı qeyd olunmuşdur ki, "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda 2020-ci il 13 mart tarixdə dəyişikliklər edilmişdir. Dəyişikliklər Qanunun mətnində günlərlə müəyyən edilən müddət anlayışının, şikayətə baxılma müddətinin və müvəkkilin səlahiyyətlərinin daha da dəqiqləşdirilməsi məqsədi daşıyır.

Sessiyada müzakirə olunan məsələ ilə əlaqədar hazırlanmış qanun layihəsi oxunmuş və səsə qoyularaq qəbul edilmişdir.

Ali Məclisin Sədri sessiyanın gündəliyində duran üçüncü məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam Komissiyasının seçilməsi haqqında olduğunu bildirərək demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 31-1-ci maddəsinə əsasən İntizam Komissiyası yaradılmalıdır. İntizam Komissiyası Ali Məclisin deputatları sırasından 5 üzvdən ibarət tərkibdə seçilir.

Müzakirə olunan məsələ ilə bağlı qərar layihəsi oxunduqdan sonra səsə qoyulmuş və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam Komissiyası seçilmişdir.

Ali Məclisin Sədri sessiyaya yekun vuraraq demişdir: Naxçıvan Muxtar Respublikasında 2020-ci ilin ötən dövründə həyata keçirilən tədbirlər, xüsusilə də insanların sağlamlığının, ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər və iqtisadi sabitliyin qorunması ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən ulu öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsidir. Qarşıdakı dövrdə də ümummilli liderimizin yoluna sədaqət muxtar respublikada kompleks inkişafa səbəb olacaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Liderin vəzifəsidir xalqı qorumaq, liderin vəzifəsidir xalqla bir yerdə olmaq. Ən ağır, ən çətin anlarda lider qabaqda olmalıdır, Heydər Əliyev kimi. O, hər birimiz üçün nümunədir... Biz də onun yolu ilə gedirik, müstəqilliyi möhkəmləndiririk və möhkəmləndirəcəyik".***

Bununla da altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyası öz işini başa çatdırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

---

## S.H.Məmmədovun Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 37-ci maddəsini və 25-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Səbuhi Hidayət oğlu Məmmədov Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 23 may 2020-ci il*

---

## S.H.Məmmədovun Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini – maliyyə naziri vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Səbuhi Hidayət oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini – maliyyə naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 23 may 2020-ci il*

## “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilsin:

1. 9.2-ci maddədə “göstərilmədikdə” sözü “və imzası (hüquqi şəxslərə münasibətdə hüquqi şəxsin adı və hüquqi ünvanı, onun rəhbərinin imzası) olmadıqda” sözləri ilə əvəz edilsin.

2. 9.3-cü maddədə “edilə bilər” sözləri “edilir” sözü ilə əvəz edilsin.

3. 10.1-ci maddənin birinci abzasında “edə bilər” sözləri “edir” sözü ilə əvəz edilsin.

4. 10.2-ci maddədə, 12.1-ci maddənin ikinci cümləsində, 12.2.2-ci, 13.1-ci maddələrdə, 13.2.1-ci və 13-1.5-ci maddələrin birinci cümlələrində “gün” sözü “iş günü” sözləri ilə əvəz edilsin.

5. 12.4-cü maddədə “apara bilər” sözləri “aparır” sözü ilə əvəz edilsin.

6. 12.6-cı maddənin ikinci cümləsində “gün də uzadıla bilər” sözləri “günədək uzadılır” sözləri ilə əvəz edilsin və üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

“Şikayətçinin yazılı müraciəti ilə əlavə yoxlama aparmaq lazım gəldiyi halda şikayətə baxılma müddəti 30 günədək uzadılır.”.

7. 13.2-ci maddənin birinci abzasında “keçirə bilər” sözləri “keçirir” sözü ilə əvəz edilsin.

8. 13.2.1-ci maddənin ikinci cümləsində “edə bilər” sözləri “edir” sözü ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 23 may 2020-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam Komissiyasının seçilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 22-ci maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aşağıdakı deputatları İntizam Komissiyasının üzvləri seçilsinlər:

1. Zeynalov Azər Yadulla oğlu
2. Həsənova Esmira Həsən qızı
3. Əliyeva Vüsalə Abazər qızı
4. Hacıyev Emin Davud oğlu
5. Bağırsoylu Hüseyn Qədrulla oğlu

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 23 may 2020-ci il*



*Turizm dünyada sürətlə inkişaf edən iqtisadi sektorlardan biridir. Ölkəmizdə də bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Mehmanxanalar, istirahət komplekslər inşa edilir, keçirilən idman yarışları, musiqi festivalları, mədəniyyət tədbirləri, simpoziumlar və digər beynəlxalq tədbirlər ölkəyə gələn turistlərin sayını ildən-ilə artırır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da füsunkar təbiəti, tarixi abidələri, müasir infrastrukturu ilə yerli və xarici turistlərin marağını cəlb edir. Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında qəbul edilmiş Fəaliyyət Proqramında da qeyd olunmuşdur ki, **“Müasir dövrdə turizm iqtisadi inkişafın vacib sahəsi kimi götürülür. Ona görə də muxtar respublikanın mövcud turizm imkanlarının tanıdılması və bu sahədə yaradılan şəraitdən səmərəli istifadə ilə bağlı tədbirlər görülməli, ölkə və xarici turizm şirkətləri ilə əlaqələr gücləndirilməli, turist cəlbi sahəsində mütərəqqi layihələr həyata keçirilməlidir”.***

*Dövlət proqramı icra olunur*

# Muxtar respublikanın turizm potensialı artır

Son illərdə muxtar respublikanın ixtisaslaşmış turizm məkanına çevrilməsi, bu sahədə üstünlüyünün artırılması istiqamətində dövlət əhəmiyyətli layihələr reallaşdırılır. Turizm sektorunun inkişafı üçün əlverişli mühitin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə hazırlanmış və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı” bu sahədə atılan mühüm addımlardandır. Proqramın uğurla icra edilməsi yüksəkkeyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təmin edilməsi, müasir ideya və innovasiyalara əsaslanan investisiya layihələrinin cəlb edilməsi üçün xüsusi əhəmiyyət kəsb edir.



Dövlət proqramında 22 bənddən ibarət tapşırıqlar nəzərdə tutulmuşdur. Bu ilin ötən dövründə proqrama uyğun olaraq Naxçıvan Turizm İnformasiya Mərkəzinin internet səhifəsi turizmlə bağlı məlumatları əks etdirən materiallarla zənginləşdirilmişdir. Sosial şəbəkə hesablarına 151 məlumat daxil edilmiş, 24 min 388 baxış sayı qeydə alınmışdır. Naxçıvan Muxtar Respublikasına səfər edən turistlərin məlumatlılığının artırılması üçün tədbirlərin görülməsi davam etdirilmiş, 15 fevral 2020-ci il tarixdə İran İslam Respublikasının paytaxtı Tehran şəhərində Azərbaycanın İrandakı səfirliyi ilə “Aysan Pərvaz” şirkətinin təşkil etdiyi “İran və Azərbaycan üzrə İkinci İxtisaslaşmış Turizm Simpoziumu”nda Naxçıvan Muxtar Respublikası təmsil olunmuşdur. Muxtar respublikanın turizm potensialı haqqında simpozium iştirakçılarına məlumat verilmiş, yerli istehsal məhsullarından ibarət hədiyyə paketləri və reklam-informasiya materialları rəsmi nümayəndələrə təqdim edilmişdir. Simpoziumda ölkəmizin, eləcə də Naxçıvan Muxtar Respublikasının turizm potensialını əks etdirən videoçarxlar nümayiş etdirilmişdir.

Naxçıvan Turizm İnformasiya Mərkəzi tərəfindən 20-dən çox xarici ölkədə və Azərbaycanda fəaliyyət göstərən 200-dən çox turoperatora, mehmanxanaların elektron poçt ünvanlarına, bölgələrdə fəaliyyət göstərən 12 turizm informasiya mərkəzinə muxtar respublikanın turizm imkanları ilə bağlı materiallar göndərilmişdir.

Turizm sahəsində əsas hərəkətverici qüvvələrdən biri reklam-informasiya fəaliyyətidir. Müasir dünyada reklam ölkənin xaricdə tanıdılması üçün əsas təbliğat vasitəsi hesab olunur. Ötən dövrdə Naxçıvan Muxtar Respublikasının turizm potensialını əks etdirən reklam-informasiya materiallarının hazırlanması və nəşri diqqətdə saxlanılmış, “Naxçıvan Muxtar Respublikasının Bələdçi Kitabı”nın tərtibi istiqamətində iş aparılmışdır.



Şübhəsiz ki, muxtar respublikaya turist səfərlərinə müsbət təsir edən önəmli faktorlardan biri də mütəmadi olaraq turizm təqvimlərinin hazırlanmasıdır. Ötən dövrdə dövlət proqramında nəzərdə tutulan tapşırığın icrası istiqamətində “Naxçıvan Muxtar Respublikasının 2020-ci il üçün Turizm Təqvimi” hazırlanmış və Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Muxtar respublikanı turistlər üçün cəlbedici edən mühüm amillərdən biri də tarix-mədəniyyət abidələrinin sayının çox olmasıdır. Bu da onu deməyə imkan verir ki, Naxçıvan Muxtar Respublikasında mədəni turizmin inkişafı üçün böyük potensial vardır. Ötən dövrdə tarixi-mədəni irsi özündə əks etdirən mədəniyyət abidələrinin qorunması, elmi bərpası istiqamətində Naxçıvan şəhərində Yusif Küseyir oğlu türbəsinin və Buxzana abidəsinin bərpası başa çatdırılmış, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tərəfindən muxtar respublikada turizmin inkişafı və perspektivləri, eləcə də turizm marşrutları üzrə bir neçə abidənin daxil edildiyi 4 monoqrafiya nəşrə təqdim edilmişdir.

Mədəni turizmin inkişafı, ilk növbədə, onun peşəkarlıqla nümayiş etdirilməsindən asılıdır. 2020-ci ilin ötən dövründə Naxçıvanın özünəməxsus dəyərlərinin və məhsullarının, o cümlədən sənətkarlıq nümunələrinin təşviqi üçün müxtəlif tədbirlər keçirilmişdir. Belə ki, “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi tərəfindən unudulmaqda olan mətbəx nümunələri ilə yanaşı, milli mətbəximizə aid adət-ənənələr və folklor nümunələrinin toplanması işi davam etdirilmiş, Naxçıvan mətbəxinə xas olan yemək reseptləri sosial şəbəkələr vasitəsilə təbliğ edilmişdir. Hazırda *www.nakhchivancuisine.az* saytının yaradılması ilə bağlı iş aparılır.

Muxtar respublikanın turizm potensialını əks etdirən ən mühüm nümunələrdən biri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 29 noyabr tarixli Sərəncamı ilə yaradılmış Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılmasında məqsəd muxtar respublikada kənd turizminin bir bölgənin timsalında inkişafına nail olmaq və gələcəkdə digər kəndlərdə də tətbiq etməkdən ibarətdir. Bu gün dünyanın bir çox ölkələrində təmiz ekoloji şəraiti olan, flora və fauna ehtiyatının qorunduğu yerlərdə turizm bölgələri yaradılır. Muxtar respublikada da turizm bölgələrinin yaradılması üçün yerlər mövcuddur. Həmin yerlər içərisində ən əlverişlisi isə Ağbulaq kəndidir”.*** Ötən dövrdə Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsində müvafiq infrastrukturun qurulması, həmçinin Xizək kompleksinin yaradılması istiqamətində işlər davam etdirilmiş, ərazidə yaşıllaşdırma işləri aparılmışdır.




Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası istiqamətində ekskursiyaların təşkili də davam etdirilmiş, Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkına və 6 mart 2020-ci il tarixdə “Turizm könüllüsü” layihəsinin iştirakçıları üçün Naxçıvan şəhəri üzrə piyada marşrutunun proqramına əsasən ekskursiyalar təşkil olunmuşdur.

Turizm sektorunun nümayəndələri üçün maarifləndirici seminarların təşkili bu sahədə peşəkarlığın müasir standartlar səviyyəsində olmasına şərait yaradır. Bu məqsədlə “Peşəkar ofisiant” layihəsi çərçivəsində iştirakçılar üçün, ümumilikdə, 10 təlim, “Təbriz” mehmanxanasında yemək süfrəsi və çay süfrəsi üzrə 2 praktik məşğələ təşkil edilmişdir. Sonda sertifikasiya imtahanı keçirilmiş, ən yüksək nəticə göstərən 6 layihə iştirakçısına müvafiq sertifikatlar təqdim edilmişdir. Turizm agenti ixtisası üzrə peşə kursunu Ordubad Texniki Peşə və Sürücülük Məktəbində 21 müdavim müvəffəqiyyətlə başa vuraraq sertifikat almışdır.

Restoran və kafelərdə müxtəlif bədii fəaliyyətlərin təşkili davam etdirilmiş, muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri tərəfindən 13 restoran və iaşə obyektində fərdi sənət ustalarının və musiqi kollektivlərinin çıxışları təşkil olunmuşdur.

*Dövlət proqramının icrası Naxçıvan Muxtar Respublikasında turizm təcrübəsinin formalaşdırılması üçün bundan sonra da yeni imkanlar açacaqdır.*

**“Şərq qapısı”**

# Xeyirxahlıq, şəfqət, birlik və bərabərlik rəmzi olan *Ramazan bayramınız mübarək!*



***İslam dininə görə, oruc tutanlar Allahın sevgisini qazanmış olurlar. Ramazan ayı Allahı dərk etmək, ruhən təmizlənmək və Uca Yaradana yaxınlaşmaq ayıdır. Müqəddəs kitabımız “Qurani-Kərim”in nazil olunduğu Ramazan ayı insanlar arasında birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin, Uca Yaradana və ilahi hikmətə bağlılığın təntənəsini nümayiş etdirir.***

Ramazan ayında müsəlmanlar Allah və din qarşısında vicdani borclarını daha dolğun ödəmək fürsəti əldə edir, mənəvi zənginliyin və əxlaqi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar. Orucluğun başa çatdığı gün Ramazan bayramı kimi qeyd olunur. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin məzarlarını ziyarətə gedir, ruhlarına dualar oxuyurlar. Bayram günləri həm də küsülülər barışar, ailə üzvlərinə bayramlıqlar hədiyyə edilər. Bir ay boyunca oruc tutmaq hər bir müsəlman üçün vacib olduğu kimi, Ramazan bayramında da imkanlıların fitrə vermələri vacibdir. Peyğəmbərimizin hədislərindən birində deyilir ki, Allah bəndəsindən tələb olunan sədəqə verilməyənədək Ramazan ayında tutulmuş oruc yerlə göy arasında asılı qalar.

İslam aləminin böyük dini və mənəvi mahiyyətə malik bu qədim bayramı müstəqillik illərində ölkəmizdə məhz ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə dövlət səviyyəsində qeyd olunmağa başlanmışdır. Ulu öndərimiz digər milli və dini dəyərlərimiz kimi Ramazan bayramını bütün dini rituallara uyğun, kütləvi şəkildə keçirmək kimi müqəddəs bir ənənəni də bərpa etmişdir. Dini dəyərlərimizin yaşadılması və təbliğinə xidmət edən bu müdrik siyasət ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilir. Bunun nəticəsidir ki, Azərbaycanda dövlət-din münasibətləri çox yüksək səviyyədə inkişaf edir. Bu gün Azərbaycan dünyanın ən tolerant ölkəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə mənəvi dəyərlərin qorunmasına xüsusi diqqət göstərildiyini bildirərək demişdir: ***“Azərbaycan müasir dövlətdir, dünyəvi dövlətdir. Eyni zamanda öz milli və dini ənənələrinə sadiq olan dövlətdir. İslam dəyərləri bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir və müqəddəs Ramazan ayı bütün dövrlərdə Azərbaycan xalqının qəlbində yaşamışdır. Azərbaycan o ölkədir ki, burada bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və bu, bizim böyük sərvətimizdir”.***

Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvan Muxtar Respublikasında da milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə xüsusi diqqət yetirilir, dini bayramlarımız ən yüksək səviyyədə qeyd edilir, ziyarətgahlarımız, məscidlərimiz təmir və ya bərpa olunur. Son illər Babək rayonunun Çeşməbasar kəndində Heydər məscidinin, Ordubad rayonunun Dırnıs kəndində Allahşükür məscidinin istifadəyə verilməsini, Nehrəm, Əbrəqunus və başqa kənd məscidlərinin milli memarlıq üslubunda yenidən qurulmasını və hazırda Naxçıvan şəhərində eyni vaxtda 2500 nəfərin ibadət edə biləcəyi, Cənubi Qafqazın ən böyük məscidlərindən olacaq bir ibadət yerinin tikilməsini buna parlaq misal göstərmək olar.

Hər il Ramazan ayının fəzilətlərinin həyata keçirilməsi, köməyə ehtiyacı olan insanlara yardım edilməsi nümunəvi ənənəyə çevrilib. Muxtar respublikada Ramazan ayı və orucluq mərasimləri hər il mənəvi dəyərlərimizə uyğun şəkildə keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“İnsan mənəviyyatının saflaşması, əxlaqi dəyərlərin bərqərar olması işinə yönəldilmiş hər bir fəaliyyət yüksək qiymətə layiqdir. Muxtar respublikamızda da dini və mənəvi dəyərlərin qorunub yaşadılmasına, İslamın müqəddəs ayin və bayramlarının qeyd edilməsinə xüsusi diqqət yetirilir”.***

Belə tədbirlərin davamı olaraq may ayının 15-də müqəddəs Ramazan ayı münasibətilə Naxçıvan şəhərindəki məscidlərdə dindarlara və məscid əhlinə, eləcə də ali təhsil müəssisələrində təhsil alan və yaranan vəziyyətlə bağlı öz vətənlərinə gedə bilməyən tələbələrə, hərbi hospitalda müalicə alan xəstələrə, muxtar respublikada işləyən xarici ölkə vətəndaşlarına və sosial qayğıya ehtiyacı olanlara iftar yeməkləri paylanıb. Dünyanı öz ağuşuna alan pandemiya dövründə ənənəvi kütləvi iftar mərasimlərinin yerinə iftar yeməklərinin paylanması muxtar respublika sakinləri və xarici ölkə vətəndaşları tərəfindən həm mənəvi dəyərlərimizin yaşadılmasına, həm də sağlamlığımızın qorunmasına xidmət edən humanist addım kimi yüksək rəğbətlə qarşılandı.

Ramazan birlik, bərabərlik ayıdır. Bu ay varlıdan kasıba kimi hamı Yaradanın böyüklüyünü dərk edib ona şükür edir. Ramazan bayramı maddi dünyanın deyil, mənəvi aləmin təntənəsi, coşqusudur. Məhz buna görə də bu müqəddəs bayram bütün İslam aləminin həmrəylik və qardaşlıq timsalına çevrilmişdir. Bayram günlərində insanlar arasında Allaha inam, Vətənə, torpağa, xalqa bağlılıq hissindən doğan bir nikbinlik əhval-ruhiyyəsi yaşanır.

Xalqımız da bütün fəsillərin, ayların ruhunu və onlardan süzülüb gələn mənaları bizə təqdim edən bu bayramı hər il böyük sevinclə qarşılayır. Əlbəttə, bayram günü ilk olaraq valideynlərimizi təbrik etməli, qulluqlarında durmaqla onlara əsl bayram sevinci yaşatmağa çalışmalıyıq. Allah-Taala “Qurani-Kərim”də valideynlərə hörmət etməyi buyurub. Xüsusilə bayram günlərində ailə üzvlərini sevindirmək, onlara qarşı səmimi məhəbbət nümayiş etdirmək bu bayramın şərtlərindəndir.

Bu bayram günlərində Azərbaycan xalqı respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman övladlarımızın unudulmaz xatirəsini ehtiramla yad edir, hər yerdə şəhidlərimizin ruhuna dualar oxunur. Ramazan bayramı, həmçinin insanların Vətən, torpaq, dövlətçilik kimi müqəddəs amallar ətrafında daha sıx birləşməsinə xidmət edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqımıza ünvanladığı Ramazan bayramı təbrikində demişdir: ***“Orucluğun sınaqlarından alnıaçıq çıxan inanclı vətəndaşlarımız Ramazan ayını qürur və şükranlıq duyğuları ilə yola salırlar. Bu mübarək bayram günlərində ölkəmizin firavanlığı və əmin-amanlığı naminə etdiyiniz dualara qatılır, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsini bir daha ehtiramla yad edirəm” .***

*Biz də bu birlik və həmrəyliyin dövlətimizin daha da güclənməsini, işğal altındakı torpaqlarımızın tezliklə azad olunmasını təmin edəcəyinə böyük inamla xalqımızın ilahi hikmətlə nurlandıran, insanları sülhə, əmin-amanlığa və həmrəyliyə çağıran Ramazan bayramını təbrik edirik.*

**“Şərq qapısı”**

***Deyirlər ki, doğma el-obanın intizarı təkcə insanları göynətmir, sakinlərinin nəvazişinə, nəfəsinə həsrət qalmış ağacı, gülü-çiçəyi də qurudur. Torpaqlarımız işğala məruz qalandan, sakinlərimiz ata-baba yurdlarından didərgin düşəndən dağlarında, düzlərində bitən güllər, ağaclar insanların getdikləri səmtə boylana-boylana qalır. Onlar da doğmalarını axtarır, üzərində boy atdıqları torpağın əsl sahiblərinin nə zamansa gələcəklərini gözləyirlər...***

# Tariximizin zəfər salnaməsi – Günnüt

26 ildir ki, Günnüt də doğma insanlarının səsini, isti nəfəsini soraqlayırdı, yollara dikilmişdi gözləri... Haray salırdı, düşmən tapdağında yaşamaq istəmirdi, səbri də tükənmişdi o gözəl torpağın... Sanki o da hiss edirdi artıq vədənin yetişdiyini. Həmin il lalələr elə açmışdı ki, sanki bu yazın fərqli bir yaz olacağını əvvəldən duymuşdu... Və elə də oldu. İki il bundan öncə, elə ilin bu vədəsində gözəl bir xəbərlə açıldı sabahımız. Qəhrəmanlar yurdu, qədim Naxçıvanın igid oğulları tariximizin şanlı səhifələrindən daha birinə zəfər dastanı yazdı. Həmin gün yenidən dünyaya gəldi Günnütüm. Üfüqlərində aylı-ulduzlu bayrağımız dalğalandı. İllərdir, imdad diləyən torpağına, yollarda qalan gözlərinə “can qurban”, – deyən igid oğulların sayəsində azad oldu Günnüt...

Ötən əsrin 90-cı illərində Şərur rayonunun Sədərək, Günnüt, Havuş və Şahbulaq kəndləri aramsız düşmən hücumlarına məruz qalıb. Həmin vaxt işğal edilən Şərur rayonunun Günnüt kəndində yaşayış evləri, o cümlədən bir çox obyektlər dağıdılıb, qaynar həyatın hökm sürdüyü bu yurd yerimiz erməni vandalları tərəfindən xarabazarlığa çevrilib. Kənd camaatı rayonun digər yaşayış məntəqələrinə, əksəriyyəti isə Şərur rayonundakı Mahmudkəndə köçməyə məcbur qalıb. 2018-ci ilin may ayında isə Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklər Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edildi. Bununla da ordumuz daha əlverişli mövqelərə sahibləndi, Xunut dağı və Ağbulaq yüksəkliyi, daha sonra isə Qızılqaya dağı və Mehridağ işğaldan azad edilərək Dərələyəz mahalının Arpa kəndi nəzarət altına alındı. Ümumilikdə, 11 min hektara yaxın ərazi düşməndən azad edildi. Bu ərazinin isə 8 min hektardan çoxu əkin üçün, xüsusilə dəmyə əkinçiliyi üçün yararlı ərazilərdir. Şərur rayonunun Günnüt kəndini nəzarətdə saxlamağa imkan verən, dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti isə ordumuza İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verməsidir. Strateji əhəmiyyətli Arpaçay su dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub. 26 illik həsrətdən sonra öz ata-baba yurdlarına, doğma ocaqlarına qayıdan Günnüt kəndinin sakinləri əcdadlarının uyuduğu qəbiristanlıqda dünyasını dəyişmiş günnütlülərin və şəhidlərimizin ruhlarına dualar ediblər. Artıq Günnüt həsrəti ilə yatıb, Günnüt həsrəti ilə sübhü açan insanların yuxusu çin oldu. Qazanılan uğur Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən “Uğurlu Naxçıvan əməliyyatı” adlandırıldı. 2018-ci il iyulun 3-də qələbədən bir neçə gün sonra Ali Məclisin Sədri işğaldan azad edilən Günnüt kəndindəki Qızılqaya yüksəkliyində və müşahidə məntəqəsində mövqelərimizin vəziyyəti ilə tanış olan zaman dedi: ***“Aprel döyüşləri Azərbaycan Ordusunun hərbi qüdrətini göstərdisə, Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun nə qədər böyük manevr qabiliyyətinə malik olduğunu təsdiq etdi”.***

Bu gün artıq işğaldan azad edilən ərazilər əkin dövriyyəsinə qatılır. 2018-ci ildə Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi uğurlu hərbi əməliyyatlar, qazanılan Günnüt qələbəsi nəticəsində ordumuz Sədərək istiqamətində şərab zavodunu və ətraf əraziləri də nəzarətə götürüb. Müdafiə məqsədilə süni təpəciklərin yaradılması, mühəndis-istehkam işlərinin möhkəmləndirilməsi, ərazilərin minalardan təmizlənərək etibarlı qorunması Sədərək rayonunun həmin ərazilərində lazımi təsərrüfat işlərinin görülməsinə şərait yaradıb. Sədərək istiqamətindəki şərab zavodunun ətrafındakı münbit torpaqlar bu ildən əkilməyə başlanılıb. Buradakı 73 hektar sahədə qarğıdalı əkini aparılıb. Əkilən məhsuldar torpaqların suvarılması üçün müasir suvarma qurğuları da işlək vəziyyətə gətirilib, 3 artezian quyusu bərpa olunub. Əraziyə yeni yol və elektrik xətləri çəkilib. Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması sədərəkliləri də sevindirir, kənd təsərrüfatı ilə məşğul olanlara stimul verir. Bütün bunlar Günnüt zəfərinin nəticəsi və muxtar respublikada ərzaq, müdafiə təhlükəsizliyi təminatının göstəricisidir. İki il öncəyə kimi düşmən tapdağında olan torpaqlarımızdan indi bahar ətri gəlir. Mal-qarasını, arı yeşiklərini Günnütün cənnət torpaqlarına çıxaran insanların indi xoş sədası eşidilir bu torpaqlarda. Azərbaycan əsgəri keşik çəkir, Vətənin üçrəngli bayrağı dalğalanır o yüksəkliklərdə. İki ildir ki, bu kəndin sakinləri illərlə həsrət qaldığı torpaqları əkib-becərir, gecələri isə rahat yatırlar. Artıq orada xoş günlər yaşanır. Düşmən gülləsindən uzaq yaşayış yerləri indi gülüstana çevrilib. Buradakı obalara köç edən heyvandarlardan İntiqam Əliyev, İlham Məmmədov, arıçı Mehman Əliyev bu rahatlığın, əmin-amanlığın səbəbini dövlətimizin gücündə görürlər. Arıçılıqla məşğul olan Mehman Əliyev iki il bundan öncə Ali Məclisin Sədri ilə görüşlərini xatırlayır və onun Günnüt balı haqqında dediyi: ***“Vaxtilə Günnüt öz balı ilə məşhur idi. Bu gün ərazidən istifadə etmək üçün lazımi şərait yaradılıb. Torpaqlarımız müdafiə olunur, yeni yol çəkilib. Bu torpaqlar kənd təsərrüfatı üçün yararlıdır. Arıçılar və təsərrüfatla məşğul olanlar bu imkanlardan lazımınca istifadə etməlidirlər”*** sözlərini yada salır. Deyir ki, doğma kəndim işğaldan azad edildəndən sonra arı ailələrini buraya köçürmüşük. Günnütün münbit torpaqlarında bitən güllərdən, müxtəlif otların, dərman bitkilərinin çiçəklərindən toplanan bal daha keyfiyyətli və dadlıdır. Bu gün dövlətimiz yurda, torpağa bağlı olan insanlara arxa-dayaq olmaqla, torpaqlardan səmərəli istifadə edilməsi, əhalinin rahat yaşayışı və lazımi təsərrüfat işlərini yerinə yetirməsi üçün hər cür şərait yaradır. Düşməndən azad edilmiş ərazilərimiz minalardan təmizlənir, əkinəyararlı hala gətirilir. Dünyada igid əsgər övladlarımızın keşik çəkdiyi öz doğma, halal torpaqlarının yiyəsi olmaqdan, onu əzizləyə-əzizləyə əkib-becərməkdən, nazını çəkməkdən də böyük xoşbəxtlik varmı?



İlham Məmmədovun doğma yurdu ilə bağlı fikirləri isə belədir:

– Bu gün güclü ordumuzun sayəsində doğma yurdumuza yenidən qayıtmışıq. Dişgöynədən bulaqları, təmiz havası Günnütdə heyvandarlığın, arıçılığın, meyvəçiliyin inkişafına imkan verir. Günnüt kəndinin və ətraf ərazilərin ordumuzun nəzarəti altına keçməsi bu torpaqlardan səmərəli istifadə etməyə imkan yaradıb. Uzun müddət Günnütün həsrətində idik. Bu ərazilərə 2 kilometr yaxınlaşa bilmirdik. Lakin bu gün 26 kilometr keçib öz torpağımızda – Günnüt kəndində təsərrüfatla məşğul oluruq. Dövlətimizə, ordumuza güvənirik. Azərbaycanla, onun qüdrətli ordusu ilə, Prezidentimizlə fəxr edirik.

Hər zaman cəbhə bölgələrindən işğalda olan torpaqlarımıza baxıb nə vaxtsa bu torpaqlardan qələbə soraqlı yazılar yazmağı arzulamışam. Bu illər ərzində ordumuzun gündən-günə necə gücləndiyini, aradan keçən zamanın torpaq həsrətimizi nə qədər alovlandırdığını izləmişəm. Və şükürlər olsun ki, 2016-cı ilin aprelindəki böyük qələbəyə və Naxçıvanımızdakı Günnüt zəfərinə şahidlik etmişəm. Həm Aprel döyüşləri, həm də Günnüt zəfəri Azərbaycan əsgərinin gücünü bir daha göstərdi. Hər kəs bu qəhrəman oğullarımızdan danışdı. Xalqımız inanır ki, bu qələbə yürüşümüz ərazi bütövlüyümüz bərpa olunana kimi davam edəcək. Və o zaman şanlı bayrağımız Azərbaycanın başı üstündə dalğalanıb “Gözün aydın, Vətən!” – deyəcək.

**Ramiyyə ƏKBƏROVA**



# Görünən tərəqqi və inkişaf artıq üfüqün bu üzündədir...

***"Gəzmək insan ömrünü uzadır", – deyib atalarımız. "Çox gəzən çox bilər"deyimi də elə bu qəbilədəndir. Çünki istirahətin, gəzməyin ruhun qidalanmasında çox faydası var, bunlar bizi ilboyu yaşadığımız qayğılardan uzaqlaşdırır. Yadımdadır, hələ balaca ikən televiziya kanallarında təqdim olunan istirahət məkanları, parklar mənə möcüzə kimi görünürdü. Elə-belə möcüzə yox ha...Tilovuma düşəcək "qızıl balığın" gerçəkləşdirəcəyi arzularımın içində yer alan bir möcüzə! O möcüzə ki sehrli aləmə aparırdı məni. O möcüzə ki hər zaman gözləyirdim ki atam bir gün məni də televiziyada seyr etdiyim əsrarəngiz parklara aparacaq...***

Mən böyüsəm də, möcüzələrə olan inamım hələ də itməmişdi. Balaca qızcığazın arzuları içində özünün gələcəyi günü gözləyirdi. İsti bir yay axşamı işdən tələm-tələsik evə gələn atam bu əlçatmaz görünən möcüzələrimi reallaşdırmaq üçün məni şəhərimizdəki seyrəngaha apardı. Sonralar da dəfələrlə burada və şəhərimizin digər istirahət guşələrində olmuşam. Vaxtilə mənə və yaşıdlarıma xoş təsir bağışlayıb həmin ünvanlar...

Bəs bu gün? İndi həmin ünvanlarda gördüklərim uşaqlıq illərinin xatirələrindəki mənzərələrdən nə ilə fərqlənir? O vaxt mənə xoş gələn parklar, sən demə, adicə yaşıllığa bürünmüş, bir-iki oturacaq qoyulmuş istirahət guşələri imiş. Bu gün isə fərq yerlə göy qədərdir. Naxçıvan şəhəri və onun ətraf əraziləri gündən-günə gözəlləşib, abadlaşıb, müasirləşib, insanların sosial şəraitinin hərtərəfli təmini və istirahətlərinin mənalı keçməsi üçün lazımi infrastruktur yaradılıb. Danılası deyil ki, Naxçıvan şəhəri tarixin heç bir dönəmində bugünkü kimi abad, gözəl, füsunkar olmayıb. İnkişafın yeni mərhələsinə qədəm qoyan bu şəhər indi möcüzəvi məkanları ilə müasir Avropa şəhərlərindən birinə çevrilib. Təbii ki, hər gözəlliyin arxasında əziyyətli illər, çətin günlər dayanır. Heç bir uğur asan başa gəlmədiyi kimi bugünkü abadlıq, tərəqqi də qram-qram, zərrə-zərrə, zəhmətdən, dövlətə sadiqlikdən yaranıb. Bir zamanlar Naxçıvanın blokada şəraitində olduğunu düşünəndə inkişafın belə yüksək səviyyədə olacağına heç kim ümid etməzdi. Son 25 ildə muxtar respublikada insan ağlına sığmayacaq dəyişikliklər, inkişaf, tərəqqi uğurlu gələcəyə körpü salıb.

Şəhəri gəzdikcə, bir-birindən yaraşıqlı mənzərələri seyr etdikcə çiçəklənən hər ünvanda yeni gözəlliklərin şahidi olursan. Bu sırada insanların sevimli məkanlarına çevrilən parkları, qeyd etmək, xüsusilə yerinə düşər. Təmizlik, səliqə-sahman, nizam-intizam bu istirahət yerlərinin əsas atributlarına çevrilib.

Naxçıvan şəhərindəki Əyləncə və İstirahət Mərkəzi, "Saat Meydanı" turistik istirahət mərkəzi, Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı, "Bazar gölü" istirahət kompleksi və sair kimi bir çox belə məkanlar insanların mədəni istirahətini təmin edən ünvanlardır. Bura gələn turistlər də şəhərimizin gözəlliyini, istirahət guşələrini heyranlıqla izləyir, yaradılan şəraitdən, gözəlliklərdən ağızdolusu danışırlar. Gündən-günə gözəlləşən diyarımıza üz tutan əcnəbi vətəndaşların sayı ilbəil artır. Sevindirici haldır ki, 2020-ci ilin ilk rübündə muxtar respublikamıza ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 45 min 512 turist gəlib.




Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı" na uyğun olaraq Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks tədbirlərin görülməsi də aparılan abadlıq-quruculuq siyasətinin daha bir nümunəsi kimi təqdirəlayiqdir. Proqram Culfa rayonunda Darıdağ arsenli su müalicə və istirahət kompleksinin tikintisinə də geniş imkanlar yaradıb.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü münasibətilə Ali Məclis Sədrinin iştirakı ilə şəhərimizin gözəl yerlərindən birində Sahil Parkının istifadəyə verilməsində də məqsəd insanların asudə vaxtlarını səmərəli təşkil etmək, bununla yanaşı, həm də onların fiziki sağlamlığı qeydinə qalmaq, idmana kütləvi şəkildə cəlb olunmalarına şərait yaratmaqdır. Yeni mədəniyyət və istirahət parkı şəhərimizin arxitektura görünüşünü gözəlləşdirməklə qədim diyarımızın turizm potensialının daha da zənginləşdirilməsinə bir töhfədir.



Bu günlərdə həmin ünvanda oldum. Gördüklərim, füsunkar mənzərələr qəlbimdə munis duyğular yaratdı. Parkda sərgilənən rəngarəng çiçəklər hər kəs kimi, məni də öz sehrinə salmışdı.

20,6 hektar ərazini əhatə edən parkda 2 idman meydançası, tennis kortu və 4 stolüstü tennis quraşdırılıb, 100 yerlik kafe istifadəyə verilib. Hər birinin sahəsi 450 kvadratmetr olan idman meydançalarında müxtəlif idman qurğuları qoyulub ki, bu da sakinlərin fiziki sağlamlığı baxımından mühüm əhəmiyyət kəsb edir. Ərazidə uzunluğu 2834 metr olan velosiped zolağı salınıb, dayanacaq quraşdırılıb və 11 velosiped alınaraq parka gələnlərin ixtiyarına verilib.

Parkdakı ən gözəl mənzərələrdən biri isə şəlalələrdir. İki şəlalə və Naxçıvan çayında quraşdırılan 3 fəvvarə parkın gözəlliyini daha da gözoxşayan edib. Şəlalələri seyr etdikcə özünü başqa aləmdə, başqa məkanda hiss edirsən.

Bütün bu sadaladıqlarım Naxçıvanda həyata keçirilən tədbirlərin kiçik bir qismidir. Ümumilikdə isə əhatə olunduğumuz diqqət və qayğı yeni-yeni üfüqlərə yollar açır. Qədim diyarımız artıq Avropa standartlarına yiyələnən sivil bir məmləkətə çevrilir. Bir vaxtlar üfüqün o biri üzü müharibə, çətinlik, yoxsulluq kimi xatırlanan muxtar respublikada artıq təntənə və zəfər illəri ard-arda tarixə şahidlik edir.

**Türkan HÜSEYNLİ**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 12 iyun 2020-ci il tarixdə açıq hərracda satılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq nəqliyyat vasitələri | Hüquqi ünvan | Nəqliyyatın satış qiyməti (manat) | Satış qiymətinin 10 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 2013-cü il buraxılışlı Kamaz 25t markalı avtokran | Naxçıvan şəhəri | 32.194 | 3.220 |
| 2. | 2011-ci il buraxılışlı Caterpillar 272c markalı təkərli yükləyici | Naxçıvan şəhəri | 15.938 | 1.594 |
| 3. | 2011-ci il buraxılışlı Caterpillar 272c markalı təkərli yükləyici | Naxçıvan şəhəri | 15.938 | 1.594 |
| 4. | 2013-cü il buraxılışlı hitachi 330-5g markalı ekskavator | Naxçıvan şəhəri | 57.375 | 5.738 |
| 5. | 2013-cü il buraxılışlı Wacker Neuson 75 Z3 markalı tırtıllı ekskavator | Naxçıvan şəhəri | 22.313 | 2.232 |
| 6. | 2004-cü il buraxılışlı MAN markalı özüboşaldan | Naxçıvan şəhəri | 8.925 | 893 |
| 7. | 2008-ci il buraxılışlı Mercedes Benz D4141 markalı özüboşaldan | Naxçıvan şəhəri | 22.950 | 2.295 |
| 8. | 2010-cu il buraxılışlı Mercedes Atego markalı yük avtomobili | Naxçıvan şəhəri | 15.938 | 1.594 |
| 9. | 2008-ci il buraxılışlı Kamaz 43253-1011-02 markalı kran manipulyator | Naxçıvan şəhəri | 15.300 | 1.530 |
| 10. | 2011-ci il buraxılışlı Mitsubishi L200 markalı minik avtomobili | Naxçıvan şəhəri | 15.938 | 1.594 |
| 11. | 2011-ci il buraxılışlı Opel combo markalı minik avtomobili | Naxçıvan şəhəri | 7.013 | 702 |
| 12. | 2010-cu il buraxılışlı Hyundai HD 72 markalı yük avtomobili | Naxçıvan şəhəri | 11.475 | 1.148 |
| 13. | 2011-ci il buraxılışlı Hyundai HD 72 markalı yük avtomobili | Naxçıvan şəhəri | 12.750 | 1.275 |
| 14. | 2007-ci il buraxılışlı Ford transit markalı sərnişin avtomobili 8+1 | Naxçıvan şəhəri | 10.838 | 1.084 |
| 15. | 2013-cü il buraxılışlı Hidromek HMK 200 markalı ekskavator | Naxçıvan şəhəri | 38.250 | 3.825 |
| 16. | 2009-cu il buraxılışlı PDP 90 markalı qoşqu | Naxçıvan şəhəri | 1.594 | 160 |
| 17. | 2008-ci il buraxılışlı Mercedes Benz D4141 markalı özüboşaldan | Naxçıvan şəhəri | 22.950 | 2.295 |
| 18. | 2008-ci il buraxılışlı Foton forland markalı yük avtomobili | Naxçıvan şəhəri | 8.288 | 829 |
| 19. | 2006-cı il buraxılışlı Man özüboşaldan | Naxçıvan şəhəri | 9.563 | 957 |
| 20. | 2010-cu il buraxılışlı Mercedes Benz E 250 markalı minik avtomobili | Naxçıvan şəhəri | 22.313 | 2.232 |
| 21. | 2006-cı il buraxılışlı Volvo FM-4X2T markalı yük avtomobili | Naxçıvan şəhəri | 28.688 | 2.869 |
| 22. | 2007-ci il buraxılışlı SCHMİTS S01 markalı tentli yarımqoşqu | Naxçıvan şəhəri | 15.938 | 1.594 |
| 23. | 2011-ci il buraxılışlı Hitachi ZX240-3G markalı ekskavator | Naxçıvan şəhəri | 44.625 | 4.463 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan nəqliyyat vasitələrinin ilkin satış qiymətinin 10 faiz məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki Auksion Mərkəzinin Xüsusi Vəsaitlər Hesabına 9 iyun 2020-ci il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitələrinin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənətin surəti.*

Hərrac 12 iyun 2020-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 12 iyun 2020-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlak haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq əmlaklar | Hüquqi ünvan | Torpağın sahəsi (ha) | Əmlakın satış qiyməti (manat) | Satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | Əmlaklar kompleksi, anbarlar, reklam bölməsi, alikopand, plastik qapı- pəncərə, mis üzərində döymə emalatxanaları, yarıtikililər, ayna istehsalı və şüşə işləmə xətləri, poliuretan istehsalı, ofis və penoplast lövhələr istehsalı, Profil istehsalı zavodu | Naxçıvan şəhəri, C.Məmmədquluzadə küçəsi | 1,6182 | 946.000 | 47.300 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 faiz məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki Auksion Mərkəzinin Xüsusi Vəsaitlər Hesabına 9 iyun 2020-ci il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisələrin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənətin surəti.*

Hərrac 12 iyun 2020-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

**Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.**
**Əlaqə telefonu: 545-01-38**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 384